| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 16.02.1995 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 32 |
| **ADI** | «Veteranlar haqqında» Azərbaycan Respublikası Qanununun icra edilməsi haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 020.000.000<br>100.000.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 01.07.2011 |

**«Veteranlar haqqında» Azərbaycan Respublikası Qanununun icra edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

«Veteranlar haqqında» Azərbaycan Respublikası Qanununun həyata keçirilməsini təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılsın ki, veteranların əmək haqqının minimum səviyyədən aşağı olmamasına ciddi nəzarət etsin, müharibə veteranlarının protezləşdirilməsi müəyyən olunmuş qaydada dövlət büdcəsinin vəsaiti hesabına birinci növbədə keçirilsin, habelə hərəkət imkanları məhdud olan veteranlara ev şəraitində xidmət göstərilməsini təşkil etsin. [1]

2. Azərbaycan Respublikası Ticarət Nazirliyinə və Azərittifaqa tapşırılsın ki, veteranları ən zəruri sənaye və ərzaq malları ilə təmin etmək məqsədi ilə yerlərdə ticarət-məişət xidmətini təşkil etmək üçün yerli icra hakimiyyəti orqanları ilə birlikdə xüsusi mağazalar, bölmələr, şöbələr yaratsınlar.

3. (çıxarılıb) [2]

4. Səhiyyə nazirliyinə tapşırılsın ki, müharibə veteranlarının dişlərinin protezləşdirilməsi (qiymətli metaldan olan protezdən başqa), veteranların işlədikləri (xidmət etdikləri) dövrdə təhkim olunduqları səhiyyə müəssisələrində tibbi yardım almaq, sanatoriya-kurort müalicə hüquqlarını pensiya çıxdıqdan sonra da təmin etsinlər.

6. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılsın ki, «Əmək veteranı» adının verilməsi qaydası və şərtləri haqqında əsasnaməni veteran vəsiqəsi nümunəsini hazırlayıb, Ədliyyə Nazirliyi ilə razılaşdırıb, 1 ay müddətinə Nazirlər Kabinetinin təsdiqinə təqdim etsin.

8. Respublika Müdafiə, Daxili İşlər və Milli Təhlükəsizlik nazirliklərinə tapşırılsın ki, müharibə və silahlı qüvvələr veteranlarına 1 yanvar 1992-ci ilə qüvvədə olan formada vəsiqələri və vəsiqələrə əlavələri versinlər.

9. Yerli icra hakimiyyəti orqanlarına tapşırılsın ki, daimi qulluğa möhtac və xroniki xəstə olan veteranlar üçün geriatriya kabinetlər, pansionatlar təşkil etsinlər, veteranların həyatını və fəaliyyətini asanlaşdıran texniki vasitələr almaqda, mənzillərini tə`mir etdirməkdə və başqa ehtiyacları ödəməkdə köməklik göstərsinlər. [3]

10. Azərbaycan Respublikası Maliyyə Nazirliyinə,*Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə* tapşırılsın ki, təqdim olunmuş smetaya əsasən, veteranlara verilən güzəştlərin və digər tədbirlərin həyata keçirilməsi üçün müvafiq məbləğdə vəsait ayırsınlar. [4]

**Baş nazirin vəzifəsini icra edən F. QULİYEV**

Bakı şəhəri, 16 fevral 1995-ci il
32

-

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

-


1. 1 aprel 2002-ci il tarixli 217 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 4, maddə 199**)
2. 8 aprel 2003-cü il tarixli 47 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, 4, maddə 219**)
3. 26 sentyabr 2006-cı il tarixli 217 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cI il, 9, maddə 830**)
4. 1 iyul 2016-cı il tarixli **263** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Azərbaycan” qəzeti, 6 iyul 2016-cı il, 144 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 7, maddə 1343**)


-

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 26 sentyabr 2006-cı il tarixli 217 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cI il, 9, maddə 830**) ilə “Veteranlar haqqında” Azərbaycan Respublikası Qanununun icra edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 16 fevral tarixli 32 nömrəli qərarının 1-ci bəndindən “veteranların pensiya təminatının yaxşılaşdırılması üçün Qanundan irəli gələn tədbirlər görsün,” sözləri çıxarılmışdır.

[2] 1 aprel 2002-ci il tarixli 217 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 4, maddə 199**) ilə "Veteranlar haqqında" Azərbaycan Respublikası Qanununu icra edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 16 fevral tarixli, 32 nömrəli qərarının 3-cü bəndi, 4-cü bəndinin ikinci abzası, 5 və 7-ci bəndləri çıxarılmışdır.

[3] 8 aprel 2003-cü il tarixli 47 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, 4, maddə 219**) ilə "Veteranlar haqqında" Azərbaycan Respublikası Qanununun icra edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 16 fevral tarixli 32 nömrəli qərarının 9-cu bəndindən "yerli büdcə hesabına" sözləri çıxarılmışdır.

[4] 1 iyul 2016-cı il tarixli **263** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Azərbaycan” qəzeti, 6 iyul 2016-cı il, 144 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 7, maddə 1343**) ilə 10-cu hissəsində **“Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna**” sözləri **“Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə** ” sözləri ilə əvəz edilmişdir.